**Azərbaycanda Vətəndaş Cəmiyyətinin İnkişafına Yardım Assosiasiyası**

**Seçki Qərargahı**

AZƏRBAYCANDA
VƏTƏNDAŞ CƏMİYYƏTİNİN
İNKİŞAFINA YARDIM ASSOSİASİYASI

**2008 – Cİ İL**

# PREZİDENT SEÇKİLƏRİNİN MONİTORİNQİ

# YADDAŞ KİTABÇASI

Müəllif: Məhərrəm Zülfüqarlı
AVCİYA Seçki Qərargahının rəhbəri

MÜNDƏRİCAT


- Ön söz
- Yerli və beynəlxalq müşahidəçinin hüquq və vəzifələri
- Müşahidəçilər üçün davranış qaydaları
- Müşahidəçi  nəyi bilməlidir

**Ön söz**

Azərbaycan Respublikası dövlət müstəqilliyini bərpa etdikdən sonra, yəni 1991 – ci ilin 18 oktyabrından bu günə kimi ölkə üzrə 9 seçki keçirilib. Bu seçkilərin xronologiyası aşağıdakı kimidir:

Prezident seçkiləri - 1992,1993,1998,2003

Milli Məclisə seçkilər – 1995, 2000, 2005

Bələdiyyə seçkiləri – 1999, 2004

Azərbaycan Avropa Şurasına üzv qəbul olunduqdan sonra demokratik və şəffaf seçkilər keçirilməsi sahəsində bir sıra işlər həyata keçirilib. 2003 – cü ildə keçirilmiş son prezident seçkilərində ilk dəfə olaraq şəffaf seçki qutularından istifadə edilib, bunun üçün İFES-in vasitəçiliyi və Almaniya, Niderland, ABŞ və Böyük Britaniya dövlətlərinin köməyi ilə plastik kilidli 7500 ədəd daşınmayan, 4950 ədəd daşınan şəffaf seçki qutusu ölkəyə gətirilib.

2005 – ci il parlament seçkilərində isə ilk dəfə olaraq səsverənlərin barmağına mürəkkəb vurulması praktikasından istifadə olunub. Bundan başqa Azərbaycan Respublikası Prezidentinin " Azərbaycan Respublikası Milli Məclisinə seçkilərin hazırlanması və keçirilməsi ilə bağlı təxirəsalınmaz tədbirlər haqqında"(25 oktyabr 2005 – ci il) sərəncamından sonra seçkilərin müşahidəsi ilə bağlı QHT–lərə qoyulmuş qadağa ləğv edilib. 2000-ə yaxın namizədin qeydiyyatdan keçdiyi, 1500 beynəlxalq və 17 minə yaxın yerli müşahidəçi tərəfindən izlənilmiş son parlament seçkiləri, bəzi qanun pozuntularına baxmayaraq Beynəlxalq Seçkiləri Müşahidə Missiyasının müşahidəçilərinin də qeyd etdiyi kimi əvvəlki seçkilərlə müqayisədə daha təkmil həyata keçirilib.

Lakin bütün bunlarla yanaşı əvvəlki seçkilərdə olduğu kimi son parlament seçkilərində də yerli və beynəlxalq müşahidəçilər tərəfində seçki günü bir sıra məntəqə və dairə seçki komissiyalarında qanun pozuntuları aşkara çıxarılmışdı. Bununla əlaqədar 10 seçki dairəsində seçkilərin nəticələri etibarsız sayılmış, bəzi seçki dairələrində səslər yenidən hesablanmış, işlərində yol verdikləri pozuntulara və 11 may və 25 oktyabr sərəncamlarını pozduqlarına görə üç icra hakimi vəzifəsindən azad edilmiş, bir sıra seçki komissiyalarının sədrləri həbs olunmuşdu. Azərbaycanın seçki tarixində ilk dəfə həyata keçirilən belə tədbirlər gələcək seçkilərinə müsbət təsiri şübhəsizdir

Azərbaycan Respublikasında 2008 – ci il oktyabrın 15 – də keçiriləcək növbəti Prezident seçkilərinin böyük əhəmiyyətini nəzərə alaraq ölkə daxilində bir ildən artıqdır ki, hazırlıq işləri həyata keçirilir. Seçicilərin, müşahidəçilərin, dairə və məntəqə komissiya üzvlərinin maarifləndirilməsi seçkilərlə məşğul olan bütün qurumların üçün prioritet təşkil etdiyindən əsas diqqət bu işə yönəlib. Azərbaycan Respublikasının Prezidentinin 28 dekabr 2006-cı il tarixində imzaladığı "Azərbaycan Respublikasında İnsan hüquqlarının müdafiəsi üzrə Milli Fəaliyyət Planının təsdiq edilməsi haqqında" Sərəncama uyğun olaraq Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında 2007 – ci il oktyabrın 16-dan başlayaraq 4 qrupa bölünməklə 125 dairə seçki komissiyası sədrləri üçün seçki hüququ üzrə ixtisaslaşdırılmış kurslar keçirilib və onlara ixtisasartırma haqqında sertifikatlar verilib. 2008 – ci il fevralın 1- dən isə 30 min məntəqə seçki komissiya üzvlərinin əhatə edən kurslar təşkil olunub.

Seçki qanunvericiliyinin təkmilləşdirilməsi istiqamətində də bir sıra işlər həyata keçirilib. Azərbaycan Respublikası Milli Məclisi müxtəlif təşkilatların təklif və tövsiyələri nəzərə alaraq 2008 – ci ilin iyun ayında "Seçki Məcəlləsi"nin 145 maddəsinə 91 dəyişiklik edıb. Konkret olaraq seçkilərin monitorinqini nisbətən asanlaşdıran aşağıdakı dəyişiklər həyata keçirilib:

- 42.2.3, 42.2.7, 42.3.1, 103.3, 104.10, 106.2, 106.7, 107.4 və 108.3 maddələrə dəyişiklik edilərək bu maddələrdə "seçki bülletenlərinin qoyulması üçün zərflər" sözləri çıxarılmış;
- 25.2.23-cü maddəyə MSK "exit-poll keçirən təşkilatların akkreditasiyasını həyata keçirir, həmin təşkilatların akkreditasiyadan keçmə qaydalarını müəyyən edir;" sözləri əlavə olunmuş;
- 72.2-ci maddədə "vəsiqə" sözü "lövhəcik" sözü ilə əvəz edilmiş;
- 102.1 - ci maddə "Məntəqə seçki komissiyası səsvermə günü seçki bülletenlərini alarkən seçicinin barmağının işarələnməsini zərərsiz, gözə görünməyən mayedən istifadə etməklə həyata keçirir" kimi yeni redaksiyada verilmiş;
- 102.2 – ci maddəyə "Seçicinin sol əlinin baş barmağı çiləmə üsulu ilə işarələnir" sözləri əlavə edilmiş;

- 102.3 – ci maddəyə “ Seçicinin barmağının əvvəl seçki bülletenini alarkən işarələnməsini müəyyən etmək üçün ultrabənövşəyi lampadan istifadə edilir" sözləri əlavə edilmiş;
- "104.6. Məntəqə seçki komissiyasının bir üzvü seçki məntəqəsinin girişində dayanaraq məntəqəyə daxil olan vətəndaşların seçici vəsiqələrini, şəxsiyyət vəsiqələrini və ya şəxsiyyəti təsdiq edən digər sənədləri, onun sol əlinin baş barmağının dırnaq və dərisinin bir hissəsinin bu Məcəllənin 102-ci maddəsində nəzərdə tutulan maye ilə əvvəl işarələndiyini yoxlayır və içəri daxil olmağa icazə verir. Bu cür işarələnmə müəyyən edilərsə, seçiciyə seçki bülleteni verilmir. Məntəqə seçki komissiyasının digər üzvü seçicinin adının seçici siyahısında olduğunu yoxlayır və ona seçki bülleteni verir. Barmağının maye ilə işarələnməsindən imtina edən seçiciyə seçki bülleteni verilməyəcəyi izah edilir. Seçici razılaşmadıqda ondan seçki məntəqəsini tərk etmək tələb edilməlidir. Bu barədə seçici siyahısında "işarələnmədən imtina etdi" qeydi aparılır. Seçici razılaşarsa, seçicinin sol əlinin baş barmağı işarələnir" cümlələri əlavə edilmiş;
- 106.2-ci maddənin 4-cü cümləsi "Daşınan seçki qutusu üzrə səslər hesablanarkən bülletenlərin ümumi sayı verilmiş ərizələrin sayından (bülleten alan seçicilərin ümumi sayından) çox olarsa, daşınan seçki qutusundakı bütün səslər məntəqə seçki komissiyasının qərarı ilə etibarsız sayılır" kimi yeni redaksiyada ifadə edilmiş və s.

Bundan sonra Avropa Şurası Parlament Assambleyasının yay sessiyasında “Azərbaycanda demokratik institutların fəaliyyəti” adlı hesabat müzakirə edilərək, bu məsələyə dair 11627 saylı qətnamə layihəsi əlavə və dəyişiklərlə qəbul olunub.

Qarşıdan gələn prezident seçkilərinin şəffaf və ədalətli keçirilməsini təmin etmək üçün seçkilərin monitorinqinin mühüm əhəmiyyəti var.

“Azərbaycanda Vətəndaş Cəmiyyətinin İnkişafına Yardım Assosiasiyası” (AVCİYA) bütün məntəqələr üzrə 10 mindən artıq yerli və beynəlxalq müşahidəçi cəlb etməklə 2005 – ci il parlament seçkilərinin monitorinqini keçirib. Assosiasiya əldə etdiyi müsbət təcrübəyə əsaslanaraq 2008 – ci il Prezident seçkiləri ərəfəsi seçicilərin maarifləndirilməsi, onların fəallığının artırılması istiqamətində fəaliyyətini daha da

genişləndirmişdir. AVCİYA Prezident seçkiləri günü respublika üzrə təşkil olunmuş 4996 seçki məntəqəsində seçkilərin monitorinqini həyata keçirməyi planlaşdırır. Bu məqsədlə yerlərdə müşahidəçilərin maarifləndirilməsi istiqamətində də məqsədyönlü fəaliyyət həyata keçirilir.

Assosiasiyada bu vaxta qədər bu işə kömək məqsədilə bir sıra metodik vəsait və kitabçalar nəşr olunub. Sizə təqdim olunan bu yeni kitabça da yerli və beynəlxalq müşahidəçilərə kömək məqsədilə hazırlanıb. Kitabça "Seçki Məcəlləsi"nin 40 – 44 - cü maddələrinə istinadən tərtib olunub.

## I  Müşahidəçinin hüquq və vəzifələri

**Prezident seçkilərinin monitorinqini həyata keçirəcək müşahidəçilərin aşağıdakı hüquq və vəzifələri var:**

- Səsvermə başlamazdan əvvəl məntəqənin səsvermə üçün yararlığını yoxlamaq;
- Səsvermə günü istədiyi vaxt müvafiq seçki məntəqəsinin səsvermə otağında olmaq;
- Səsvermədə iştirak edən şəxslərin siyahısı ilə tanış olmaq;
- Səsvermə başladığı vaxtdan səsvermənin nəticələri üzrə rəsmi protokolların tərtib olunmasına qədər prosesi müşahidə etmək;
- Seçicilərə seçki bülletenlərinin verilməsini və onların səs vermə prosesini müşahidə etmək;
- Müvafiq seçki komissiyalarında seçicilərin səslərinin təkrar hesablanmasını müşahidə etmək;
- Seçki bülletenlərinin, həmçinin ləğv edilmiş seçki bülletenlərinin sayılmasını müşahidə etmək;
- Müşahidənin nəticələrinin seçki komissiyasının protokoluna əlavə olunmasını tələb etmək;
- Nəticələr haqqında rəsmi protokolların surətlərini əldə etmək;
- Seçki komissiyalarına qeydlər və təkliflər vermək;
- Seçki sənədlərinin dairə seçki komissiyasına və Mərkəzi Seçki Komissiyasına göndərilməsini müşahidə etmək.
- Yuxarı seçki komissiyalarına və ya məhkəmələrə şikayət ərizələri təqdim etmək;
- Mətbuat konfransları keçirmək və kütləvi informasiya vasitələrinə bəyanatlar vermək;
- Video və fotoçəkilişlər aparmaq

**Beynəlxalq müşahidəçilər üçün nəzərdə tutulan qaydalar**

Birləşmiş Millətlər Təşkilatı 2005-ci il oktyabrın 24-də qəbul etdiyi " beynəlxalq seçki müşahidə prinsiplərinə dair bəyannamədə deyilir: " Beynəlxalq seçki müşahidəsi aşağıdakılardan ibarətdir: seçkilərin keçirilməsinə dair qanunlar, proseslər və təsisatlarla bağlı informasiyanın, bütün seçki mühiti ilə bağlı digər faktorların sistematik, ətraflı və düzgün şəkildə toplanması; bu cür informasiyanın qərəzsiz və keyfiyyətli təhlili; informasiyanın düzgünlüyü və təhlilin qərəzsizliyinə dair ən yüksək standartlara əsaslanan seçki proseslərinin xarakteri ilə bağlı rəy formalaşdırmaq. Beynəlxalq seçki müşahidəsi seçki və seçki ilə bağlı digər proseslərə müdaxilə etmədən, mane olmadan, mümkün olduğu zaman, bu cür proseslərin düzgünlüyünü və səmərəliliyini təkmilləşdirmək məqsədilə tövsiyələr verir. Beynəlxalq seçki müşahidə missiyaları beynəlxalq seçki müşahidəsinin həyata keçirilməsi məqsədilə hökumətlərarası və beynəlxalq qeyri-hökumət təşkilatları və assosiasiyalarının birgə səylərini özündə cəmləşdirir".

Beynəlxalq müşahidəçilər üçün "Seçki məcəlləsi"ndə aşağıdakı hüquqi prosedur nəzərdə tutulmuşdur:

- Beynəlxalq müşahidəçilər qanunla müəyyənləşdirilmiş qaydada və müvafiq dəvət əsasında Azərbaycan Respublikasına gələrkən Mərkəzi Seçki Komissiyasında qeydiyyatdan keçirlər;
- Dəvətlər seçkilərin təyin edilməsi barədə qərar rəsmi dərc edildikdən sonra Milli Məclis, müvafiq icra hakimiyyəti orqanları və Mərkəzi Seçki Komissiyası tərəfindən göndərilə bilər;
- İnsan və vətəndaşların hüquq və azadlıqlarının qorunması sahəsində nüfuzu olan qeyri-hökumət təşkilatları da beynəlxalq müşahidəçilərin dəvət olunması haqqında öz təkliflərini Milli Məclisin deputatlarına, Mərkəzi Seçki Komissiyasına və ya müvafiq icra hakimiyyəti orqanına verə bilərlər;
- Beynəlxalq müşahidəçi qeydə alınmaq üçün ərizə ilə MSK – ya müraciət edir. Ərizəyə pasportun surəti və 3x4 ölçüsündə fotoşəkil əlavə olunmalıdır;
- MSK-a beynəlxalq müşahidəçiyə dövlət dilində və xarici dillərin birində onun təqdim etdiyi sənədlərə uyğun tərtib edilmiş vəsiqə - lövhəcik verir;
- Yalnız belə lövhəciyin olması beynəlxalq müşahidəçiyə seçkilərin hazırlanması və keçirilməsi dövründə fəaliyyət göstərmək imkanı verir;

- Beynəlxalq müşahidəçi öz fəaliyyətini müstəqil və sərbəst həyata keçirir, onun fəaliyyəti müşahidəçini göndərən tərəfin hesabına və ya onun öz şəxsi vəsaiti hesabına maliyyələşdirilir;
- Beynəlxalq müşahidəçi Azərbaycan Respublikası ərazisində olduğu müddətdə dövlətin mühafizəsi altına alınır. Seçki komissiyaları, dövlət hakimiyyəti orqanları və bələdiyyə qurumları ona zəruri yardım göstərməyə borcludurlar;
- Beynəlxalq müşahidəçilər səsvermə günündən sonra seçki qanunvericiliyi, seçkilərin hazırlanması və keçirilməsi ilə əlaqədar mətbuat konfransı keçirə və kütləvi informasiya vasitələrinə müraciət edə bilərlər;
- Beynəlxalq müşahidəçilərin seçicilərlə, namizədlərlə, qeydə alınmış namizədlərlə, seçki komissiyalarının üzvləri ilə, siyasi partiyaların, siyasi partiyalar bloklarının, referendum üzrə təşviqat qruplarının səlahiyyətli nümayəndələri ilə, qeydə alınmış namizədlərin, siyasi partiyaların, siyasi partiyalar bloklarının, referendum üzrə təşviqat qruplarının vəkil edilmiş şəxsləri ilə görüşmək hüququ vardır;
- Beynəlxalq müşahidəçilər seçki kampaniyasının gedişi, seçkilərin hazırlanması və keçirilməsi ilə əlaqədar olmayan fəaliyyətlə məşğul olmaq üçün öz statusundan istifadə edə bilməzlər;
- Beynəlxalq müşahidəçi qanunları, beynəlxalq hüquq normalarını pozduğu hallarda Mərkəzi Seçki Komissiyası onun qeydiyyatını ləğv edə bilər.

**Müşahidəçilər aşağıdakı prinsiplərlə seçkilərin monitorinqini aparmalıdırlar:**

- Müşahidə açıq və şəffaf aparılmalı;
- Seçki prosesinə hər hansı bir namizədin və ya siyasi partiyanın mənafeləri naminə təsir göstərməməli;
- Müşahidə edilən hərəkətlərə aid olan bütün hallar və faktlar nəzərə alınmalı;
- Müşahidənin yekunları faktlara əsaslanmalı;

Sadalanan prinsiplər müşahidəçinin lövhəciyinin arxasında göstərilməlidir.

Müşahidə seçkilər elan olunduğu gündən başlanır və müvafiq məhkəmələrdə seçkilərlə əlaqədar bütün mübahisələrə baxıldıqdan sonra, seçkilərin yekunlarının rəsmi dərc edildiyi gün bitir.

## Rəsmi şikayət ərizələrinin verilməsi prosedurları

Müşahidəçilər seçki günü hər hansı bir çatışmazlıq və ya qanun pozuntusu aşkara çıxardıqda bununla bağlı ilkin olaraq şifahi şəkildə öz iradlarını seçki komissiyasına bildirməlidir. Bu iradlar komissiyanın sədri, zəruri halda isə, komissiyanın iclası tərəfindən nəzərdən keçirilməlidir. Əgər müşahidəçinin qeyd etdiyi hallar aradan qaldırılmazsa, müşahidəçilər rəsmi şikayət ərizəsi yazmalıdırlar. Qanuna müvafiq olaraq şikayət ərizələri 7 gün ərzində yuxarı səviyyəli seçki komissiyasına və ya rayon məhkəmələrinə təqdim edilməlidir. Müşahidəçi şikayət ərizəsini aşağıdakı qaydada hazırlamalıdır:

- Şikayəti təsdiqləmək üçün mümkün qədər çox sənəd toplanmalı və ərizəyə tikilməli;
- Şikayət ərizəsi bütün şahidlər tərəfindən imzalanmalı;
- Müşahidəçi yuxarı seçki komissiyasına şikayət ərizəsilə müraciət etdikdə, ərizəyə tikilmiş əlavə sənədlərin iki surətdə olmasına əmin olmalıdır. Bir nüsxə komissiyada, digəri isə qəbz kimi, iddiaçıda qalmalıdır. Komissiyanın üzvlərindən biri iddiaçıda qalan sənədləri imzalamalı və möhürlə təsdiq etməlidir.

## II Müşahidəçilər üçün davranış qaydaları

Seçkilərin monitorinqini həyata keçirən müşahidəçilər seçki məntəqəsində olan şəxslərlə etik normalar çərçivəsində davranmalı, konkret olaraq aşağıdakı davranış qaydalarına əməl etməlidirlər :

- Seçki prosesində neytral və təmənnasız mövqe tutmalı;
- Seçki prosesini yalnız müşahidə etməli, ona müdaxilə etməməli;
- Seçki komissiyalarının üzvləri ilə dialoqa girməməli, təlimat və göstərişlər verməməli, sualları olarsa komissiyanın sədrinə müraciət etməli;
- Yalnız öz qənaətlərinə əsaslanan məlumatları qeydə almalı.

Birləşmiş Millətlər Təşkilatının Seçkilərin Təkmilləşdirilməsi və Yardım Mərkəzi 27 Oktyabr 2005-ci il tarixdə beynəlxalq seçki müşahidəçiləri üçün " Davranış Kodeksi" ni hazırlamışdır. Bu kodeksin əsas müddəaları aşağıdakılardır:

- Suverenliyə və beynəlxalq insan hüquqlarına hörmət;
- Ölkənin qanunlarına və seçki orqanlarının səlahiyyətlərinə hörmət;
- Beynəlxalq seçki müşahidə missiyasının düzgünlüyünə hörmət;
- Siyasi qərəzsizliyin daima qorunması;
- Seçki prosesinə müdaxilə etməmək;
- Digər seçki müşahidəçiləri ilə əməkdaşlıq;
- Şəxsi davranışın lazımi qaydada təmini

**Müşahidəçilərə aşağıdakıları etmək qadağandır:**

- Seçicilərə seçki bülletenləri vermək;
- Seçiciyə necə səs verəcəyi və ya necə səs verdiyi haqqında suallar vermək;
- Seçicinin xahişi ilə onun əvəzinə seçki bülleteni alınması haqqında imza etmək;
- Seçicinin xahişi ilə seçki bülletenini doldurmaq;
- Seçki komissiyalarının həlledici səs hüquqlu üzvləri ilə birlikdə seçki bülletenlərinin hesablanmasında birbaşa iştirak etmək;
- Seçki komissiyalarının işinə maneə törədən hərəkətlər etmək;
- Seçicilər arasında təbliğat və təşviqat aparmaq;
- Bu və ya digər namizədin dəstəklənməsi kimi qiymətləndirilə bilən hərəkətlər və ya çağırışlar etmək;
- Müvafiq seçki komissiyasının qərarlarının qəbul olunmasına müdaxilə etmək;
- Seçicilərin suallarına cavab vermək (öz statusu ilə bağlı suallar istisna olmaqla).

Göstərilən tələblərə riayət etməyən müşahidəçinin qeydiyyatı onu qeydə almış seçki komissiyasının müraciəti əsasında müvafiq məhkəmə tərəfindən ləğv edilə bilər.

## III Müşahidəçi nəyi bilməlidir

- Hər bir müşahidəçi "Seçki Məcəlləsi"ndə nəzərdə tutulmuş qaydada seçki məntəqələrinin təşkili, seçici siyahılarının və seçki bülletenlərinin tərtibi, səsvermə otağına aid tələblər və səsvermənin keçirilməsi qaydaları haqqında ümumi bilgilərə malik olmalıdır;
- Səsvermə başlamazdan əvvəl, müşahidəçilərin iştirakı ilə komissiya üzvləri seçki bülletenlərini saymalıdırlar;
- Komissiyanın sədri müşahidəçilərin iştirakı ilə boş seçki qutusunu və daşınan seçki qutusunu bağlamalı, möhürləməli və səsvermənin başlandığını elan etməlidir;
- Yerli və beynəlxalq müşahidəçilər eyni hüquqlara malikdirlər və eyni vəzifələr daşıyırlar;
- Azərbaycan Respublikasının vətəndaşları beynəlxalq müşahidəçi statusu ala bilməzlər;
- Müşahidəçi müşahidəni öz təşəbbüsü ilə və ya qeydə alınmış namizədin, siyasi partiyanın, siyasi partiyalar blokunun, seçkilər sahəsində fəaliyyət göstərən qeyri-hökumət təşkilatının təşəbbüsü əsasında apara bilər;
- Seçki komissiyalarına rəsmi daxil olmuş şikayətlərə baxıldıqda maraqlı tərəfin nümayəndələrinin iclasda iştirak etmək hüququ var;
- Səsvermə gününədək seçki komissiyasının iclasını müşahidə etmək hüququna yalnız Mərkəzi Seçki Komissiyasında qeydiyyatdan keçərək xüsusi icazə almış müşahidəçilər malikdirlər;
- Səsvermə günü seçki komissiyasının iclasını müşahidə etmək üçün xüsusi icazə tələb olunmur;
- Müşahidəçilərin istənilən seçki məntəqəsinin səsvermə otağına maneəsiz buraxılışı təmin edilməlidir;
- Müşahidəçinin soyadı, adı, atasının adı, ünvanı, onu göndərən təşkilatın və ya namizədin adı olan lövhəciyi olmalıdır;

- Müşahidəçinin göndərilməsi haqqında qabaqcadan xəbər vermək tələb olunmur;
- Səsvermə günü müşahidəçilərin siyahısı məntəqə seçki komissiyasının katibi tərəfindən tərtib olunur;
- Seçki məntəqəsində səsvermədə iştirak edən seçicilər, məntəqə seçki komissiyasının üzvləri, müşahidəçilər, qeydə alınmış namizədlər və onların səlahiyyətli nümayəndələri, siyasi partiyaların vəkil edilmiş şəxslərindən başqa digər şəxslərin olması qadağandır;
- Səsvermədə seçici kimi iştirak etmə halları istisna edilməklə, seçki məntəqəsində dövlət orqanlarının vəzifəli şəxslərinin olması qadağandır;
- Məntəqə seçki komissiyasının sədri tərəfindən hüquq mühafizə orqanları işçiləri məntəqədə asayişin bərpa edilməsi məqsədi ilə seçki məntəqəsinə dəvət oluna bilərlər və öz vəzifələrini icra etdikdən sonra seçki məntəqəsini dərhal tərk etməlidirlər;
- Hüquq mühafizə orqanının nümayəndələri seçki məntəqəsinə daxil olduqda səsvermə dayandırılır. Səsvermə zamanı asayişi bərpa etmək 6 saatdan artıq mümkün olmazsa, dairə seçki komissiyasının qərarı ilə seçki məntəqəsi bağlanır. Belə seçki məntəqələrində səsvermə etibarsız sayılır;
- Seçici seçki bülletenini doldurarkən səhvən onu korlayarsa yeni seçki bülleteni verilməsini xahiş edə bilər. Bu halda seçki komissiyasının üzvü korlanmış bülleteni ortadan kəsməklə ləğv edir, ayrıca zərfə qoyur, seçiciyə yeni bülleten verir və seçicilər siyahısında seçicinin soyadından sağda müvafiq qeyd edir. Bu barədə dərhal ayrıca akt tərtib olunur;
- Seçicinin səsvermə otağından kənarda səs vermək istəyi müşahidəçilərin iştirakı ilə məntəqə seçki komissiyasına göndərilən yazılı ərizə ilə təsdiq olunmalıdır;
- Seçici yardım olmadan öz seçki bülletenini ala və ya işarələyə bilmədikdə, başqa şəxsdən kömək istəyə bilər. Seçiciyə seçki bülleteninin işarələnməsində kömək edən şəxsin familiyası və adı seçicilər siyahısında, həmin seçicinin seçki bülletenini aldığını təsdiqləyən imzasının yanında qeyd olunmalıdır;

- Seçicinin adı seçicilər siyahısında olmadıqda, komissiya üzvü seçicidən onun şəxsiyyətini təsdiq edən sənəd tələb etməli, onun adını əlavə siyahıya daxil etməlidir;
- Səsvermə kabinəsində eyni zamanda birdən artıq seçici ola bilməz;
- Daşınan seçki qutusunu ən azı bir müşahidəçi müşayiət etməlidir;
- Daşınan seçki qutusu seçki məntəqəsinə qaytarılan kimi, komissiya sədri istifadə olunmamış bülletenlərin sayını, həmçinin korlanmış bülletenlərin sayını yazmalı, daşınan seçki qutusu vasitəsilə səs vermiş seçicilərin seçici siyahısında olan adlarının qarşısında xüsusi işarə qoymalıdır;
- Seçki qutusunda, paylanmış seçki bülletenlərinin sayından artıq sayda seçki bülleteni ola bilməz;
- Müşahidəçilər müşahidənin yekunlarına dair rəylərini mərkəzi, dairə və ya məntəqə seçki komissiyasının sədrinə təqdim etdikdə həmin rəy səsvermənin nəticələri və ya seçkilərin yekunları haqqında protokola əlavə edilməlidir və s.

**Müşahidəçilər seçki prosesində aşağıdakılara xüsusi fikir verməlidirlər:**

- Səsvermə otağının və gizli səsvermə kabinəsinin qanunun tələblərinə tam uyğunluğuna;
- Seçki bülletenlərinin və ya səs verməyə gəlmiş seçicilərin sayına;
- Seçki komissiyası tərəfindən seçicinin şəxsiyyətini təsdiq edən sənədin düzgün yoxlanmasına, seçiciyə neçə seçki bülleteni verilməsinə;
- Seçki məntəqəsində və ya onun kənarında hər hansı siyasi partiyanın və ya namizədin xeyrinə seçki qabağı təşviqat materialının olub, olmamasına, ayrı-ayrı şəxslərin xeyrinə təbliğat aparılıb, aparılmamasına;
- Məntəqə seçki komissiyası üzvləri və eləcə də digər şəxslər tərəfindən qutulara bülletenlərin atılıb, atılmamasına;
- Səsvermənin gizliliyi prinsipinə əməl edilməsinə, daşınan seçki qutuları ilə seçki məntəqəsindən kənarda səsvermə keçirilməsinin qanunauyğunluğuna;
- Bəzi seçicilərin öz ailə üzvlərinin əvəzinə səs vermə hallarının qarşısının alınmasına;

- Müxtəlif namizədləri təmsil edən komissiya üzvlərinin qarşılıqlı razılaşma yolu ilə namizədlər üçün bərabər sayda bülletenlərin qutulara salınmasının qarşısının alınmasına;
- Səsvermənin qanunda göstərilən vaxtda başa çatdırılmasına;
- Seçki bülletenlərinin qutulardan boşaldılması və yekun protokolların tərtibinə;
- Səsvermə başa çatdıqdan sonra seçki qutuları açılarkən onların yararlığının yoxlanılmasına;
- Etibarsız hesab edilmiş və normal seçki bülletenlərinin bir-birindən ayrılaraq düzgün sayılmasına;
- Səslərin sayılmasında sui–istifadə hallarının qarşısının alınmasına.

**Müşahidəçi özü ilə nə gətirməlidir**

- Şəxsiyyət vəsiqəsi, müşahidəçi səlahiyyətlərini təsdiq edən sənəd və ya akkreditasiya vəsiqəsi;
- Gün ərzində aparılan müşahidələri qeyd etmək üçün dəftər, bloknot və qələm ;
- Bütün gün üçün kifayət edəcək qədər ərzaq;
- Fənər

Seçki qurtardıqdan sonra məntəqə komissiyası aşağıdakı sənədləri 24 saat ərzində DSK – ya göndərməlidir:

- Məntəqə komissiyası tərəfindən seçki bülletenlərinin alınmasına aid akt;
- İstifadə edilməmiş bülletenlərin ləğv edilməsi haqqında akt;
- Seçki bülletenlərinin kəsilmiş sol künclərinin sayı haqqında akt;
- Korlanmış seçki bülletenlərinin sayı haqqında akt;
- Seçicilərin ərizələri əsasında istifadə olunan və geri qaytarılmış seçki bülletenlərinin sayı haqqında akt;
- Müşahidəçilərin rəyləri.

## Sərəncamlar, təlimatlar və digər sənədlər

Azərbaycan Respublikasında seçki praktikasının təkmilləşdirilməsinə dair

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

(11 may 2005 )

Demokratik seçkilər sabit vətəndaş cəmiyyətinin və hər bir dövlətin mütərəqqi inkişafının əsasını təşkil edir. 1995-ci ildə qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyası bu sahədə əsas prioritetləri müəyyən etmişdir. Onları rəhbər tutaraq Azərbaycanda ümumi, bərabər və birbaşa seçki hüququ əsasında gizli və şəxsi səsvermə yolu ilə azad və mütəmadi keçirilən seçkilərin hüquqi bazası yaradılmışdır. 1997-ci ildən başlayaraq Azərbaycan rəhbərliyinin siyasi iradəsinə uyğun olaraq, müasir standartlara cavab verən seçki qanunvericiliyinin təsis edilməsi məqsədi ilə Azərbaycan Hökuməti ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosu ilə yaxından əməkdaşlıq etmişdir. Avropa Şurasının üzvü olduqdan sonra Azərbaycanın bu əməkdaşlıq çərçivəsi daha da genişləndirilmiş və bu prosesə Avropa Şurasının Venesiya Komissiyası da cəlb edilmişdir. Səmərəli əməkdaşlıq nəticəsində seçki qanunvericiliyinin unifikasiyası məqsədi ilə 2003-cü ilin mayında Azərbaycan Respublikasının Seçki Məcəlləsi qəbul edilmişdir. Bu Məcəllə beynəlxalq təşkilatlar tərəfindən yüksək qiymətləndirilmişdir. Venesiya Komissiyasının və ATƏT-in DTİHB-nin Yekun rəyində bildirilmişdir ki, Seçki Məcəlləsi seçkilərin və referendumun keçirilməsi üçün əksər məsələlərdə beynəlxalq meyarlara və ən yaxşı təcrübələrə uyğun olan hərtərəfli çərçivələr nəzərdə tutur.

1995-ci ildən bəri keçirilmiş seçkilərin hər biri əvvəlki ilə müqayisədə seçkilərin beynəlxalq standartlara çatdırılması yolunda irəliyə atılmış bir addım idi və seçkilərə dair beynəlxalq təşkilatların verdikləri rəylərin müqayisəli təhlili bunu sübut edir. Lakin, təəssüflər olsun ki, seçkilər sahəsində ciddi tərəqqinin əldə edilməsinə baxmayaraq, bir sıra nöqsanlar və çatışmazlıqlar qalmaqdadır. Azərbaycan rəhbərliyinin 10 illik fəaliyyəti, müasir demokratik standartlara cavab verən seçkilərin keçirilməsinə yönəlmiş siyasi iradəsi və həmin iradənin təzahürü olan seçkilər praktikasının ildən-ilə təkmilləşdirilməsi onu sübut edir ki, seçkilər zamanı baş verən qanun pozuntularının səbəbləri Azərbaycan rəhbərliyinin siyasi iradəsindən kənardır. Onların səbəblərini bəzi məmurların və seçki komissiyalarının üzvlərinin qeyri-peşəkarlığında və bir çox hallarda məsuliyyətsizliyində və ümumilikdə “postsovet mentalitetində” axtarmaq lazımdır.

2005-ci ilin noyabrında keçirilməsi nəzərdə tutulan parlament seçkilərinə hazırlıq dövründə və həmin seçkilərin keçirilməsi zamanı bu sahədə baş verə bilən əyintilərin və qanun pozuntularının qarşısını almaq, Milli Məclisə seçkiləri Azərbaycan Respublikası Seçki Məcəlləsinin müddəalarına tam uyğun keçirmək, bu sahədə icra hakimiyyəti orqanlarının üzərilərinə düşən vəzifələrin lazımınca yerinə yetirilməsini təmin etmək məqsədi ilə qərara alıram:

1. Mərkəzi Seçki Komissiyasına tövsiyə edilsin ki, seçki rəsmilərinin o cümlədən, paytaxtdan kənarda işləyəcək seçki rəsmilərinin təlim kurslarından keçməsi məqsədi ilə müvafiq proqramlar hazırlasın və bu sahədə bütün siyasi qüvvələrlə və beynəlxalq təşkilatlarla hərtərəfli əməkdaşlıq etsin.

2. Müəyyən edilsin ki, mərkəzi və yerli icra hakimiyyəti orqanlarının rəhbərləri, digər dövlət məmurları seçki prosesinə qanuna zidd olaraq müdaxilə edərlərsə, Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq məsuliyyətə cəlb ediləcəklər.

3. Mərkəzi və yerli icra hakimiyyəti orqanlarına tapşırılsın ki, Azərbaycan Respublikasının Seçki Məcəlləsinə uyğun olaraq, öz səlahiyyətləri çərçivəsində seçkilərdən sonra siyasi mənsubiyyətə görə vətəndaşların təqib olunmasına yol verməsinlər və bu cür faktlar aşkar olunduqda Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq, belə hərəkətlər etmiş şəxslərin Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq məsuliyyətə cəlb olunmaları üçün zəruri tədbirlər görsünlər. İzah edilsin ki, Azərbaycan Respublikası Cinayət Məcəlləsinin, İnzibati Xətalar Məcəlləsinin və digər qanunların tələblərinin Azərbaycan Respublikasının vətəndaşları tərəfindən pozulmasına görə onların məsuliyyətə cəlb edilməsi halları siyasi mənsubiyyətə görə təqib kimi qiymətləndirilə bilməz.

4. Azərbaycan Televiziya və Radio Verilişləri Qapalı Səhmdar Cəmiyyətinə tapşırılsın, İctimai Televiziya və Radio Yayımları Şirkətinə, özəl televiziya və radio yayımları şirkətlərinə tövsiyə edilsin ki, deputatlığa namizədlərin bərabər əsaslarla təbliğ olunmasını təmin edən proqramlar hazırlasınlar və siyasi platformaların müzakirəsi məqsədi ilə müvafiq forumlar təşkil etsinlər.

5. Mərkəzi və yerli icra hakimiyyəti orqanlarına tapşırılsın ki, Azərbaycan Respublikasının Seçki Məcəlləsinə uyğun olaraq, öz səlahiyyətləri çərçivəsində ixtisaslaşmış ictimai rəyçilər tərəfindən aparılacaq exit poll prosesinin aparılmasına lazımi şərait yaratsınlar, həmin prosesin gedişinə qanuna zidd olaraq müdaxilə etməsinlər.

6. Mərkəzi və yerli icra hakimiyyəti orqanlarına tapşırılsın ki, Azərbaycan Respublikasının Seçki Məcəlləsinə uyğun olaraq, öz səlahiyyətləri çərçivəsində deputatlığa bütün namizədlər üçün kütləvi informasiya vasitələrindən bərabər qaydada istifadə etmələrini və onlar üçün bərabər təbliğ imkanlarının yaradılmasını təmin etsinlər.

7. Mərkəzi və yerli icra hakimiyyəti orqanlarına tapşırılsın ki, Azərbaycan Respublikasının Seçki Məcəlləsinə uyğun olaraq, öz səlahiyyətləri çərçivəsində paralel səsvermənin nəticələrinin ədalətli və şəffaf şəkildə həyata keçirilməsinə dair zəruri tədbirlər görsünlər və müvafiq seçki rəsmilərinə zəruri yardım göstərsinlər.

8. Azərbaycan Respublikası Milli Məclisinin deputatlarının seçkiləri ərəfəsində mərkəzi və yerli icra hakimiyyəti orqanları Azərbaycan Respublikası vətəndaşlarının toplaşmaq azadlığının, seçki kampaniyası zamanı və seçkilərdən sonra ictimai sabitliyin təmin

edilməsi məqsədi ilə Azərbaycan Respublikası qanunvericiliyinə uyğun olaraq lazımi tədbirlər görsünlər.

9. Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və aşağı seçki komissiyalarına tövsiyə edilsin ki, hər bir seçiciyə vəsiqənin çatdırılmasını təmin etsinlər, seçici siyahılarının dəqiq və dürüst tərtib edilməsi üçün Azərbaycan Respublikasının Seçki Məcəlləsinə uyğun olaraq lazımi tədbirlər görsünlər.

10. Yerli icra hakimiyyəti orqanlarına tapşırılsın ki, Azərbaycan Respublikasının Seçki Məcəlləsinə uyğun olaraq, öz səlahiyyətləri çərçivəsində dəqiq seçici siyahılarının tərtib edilməsi və həmin siyahıların seçkilərə ən azı 65 gün qalmış seçki məntəqələrində açıq nümayiş etdirilməsi üçün zəruri tədbirlər görsünlər.

11. Azərbaycan Respublikası Prezidentinin İcra Aparatına tapşırılsın ki, iqtidaryönlü, mərkəzçi və müxalif siyasi qrupların seçkilərlə əlaqədar müvafiq tədbirlərin həyata keçirilməsi və peşəkarlığın, təşkilatı işlərin yaxşılaşdırılmasına yönəlmiş beynəlxalq donorların texniki yardımından istifadə ilə məşğul olacaq yaranmış kontakt qrupunun toplantısının keçirilməsinə kömək göstərsin.

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 11 may 2005-ci il

## AZƏRBAYCAN RESPUBLİKASININ MİLLİ MƏCLİSİNƏ SEÇKİLƏRİN HAZIRLANMASI VƏ KEÇİRİLMƏSİ İLƏ BAĞLI TƏXİRƏSALINMAZ TƏDBİRLƏR HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

(25 oktyabr 2005-ci il )

Azərbaycan Respublikasının Milli Məclisinə 2005-ci il noyabrın 6-da keçiriləcək seçkilərə hazırlıq yekun mərhələyə daxil olmuşdur. Seçkilərə hazırlıq dövründə seçki komissiyalarının və icra hakimiyyəti orqanlarının gərgin işi nəticəsində zəruri təşkilatı-hüquqi tədbirlər görülmüş və təşviqat işlərinin qurulmasında xeyli nailiyyətlər əldə olunmuşdur. Deputatlığa namizədlərin qeydiyyatı azad və mütəşəkkil şəkildə həyata keçirilmiş, onların qarşısında heç bir süni maneələr yaradılmamış və qeydiyyat zamanı subyektiv faktorların təsiri minimuma endirilmişdir. Seçki komissiyaları müasir avadanlıqla təchiz edilmiş və bu proses hələ də davam etməkdədir. 2000-dən artıq deputatlığa namizədin qeydə alınması, onların seçicilərlə çoxsaylı görüşləri, seçkiqabağı təşviqatın sərbəst surətdə və bərabər əsaslarla həyata keçirilməsi, televiziya və radio kanallarında debatların təşkili, əyani təşviqat vasitələrindən geniş istifadə olunması və sair hazırkı seçki kampaniyasını səciyyələndirən əsas xüsusiyyətlərdəndir.

Azərbaycanın bütün şəhər və rayonlarında vətəndaşların sərbəst toplaşmaq hüququnun həyata keçirilməsini təmin etmək məqsədi ilə müvafiq yerlər ayrılmışdır ki, bu da

deputatlığa namizədlərin seçicilərlə görüşlərinin keçirilməsi üçün münasib şərait yaratmışdır. Təsisçiləri dövlət orqanları olan və ya dövlət büdcəsindən maliyyələşən teleradio təşkilatları seçki qanunvericiliyinə uyğun olaraq, 60-dan çox dairədə namizədləri qeydə alınmış siyasi partiyalara, siyasi partiyaların bloklarına bərabər şəkildə pulsuz efir vaxtı ayırmışlar və bu efir vaxtından seçki təşviqatı üçün aktiv istifadə edilir. Qeyd etmək lazımdır ki, dövlət teleradio kanallarından bu məqsəd üçün ayrılan efir vaxtının həcmi əvvəlki seçkilərlə müqayisədə iki dəfə artıqdır. Dövlət və özəl teleradio təşkilatlarında ödənişli efir vaxtından geniş istifadə edilir. Seçki praktikasında ilk dəfə olaraq seçici vəsiqələrindən istifadə edilir və bu iş digər ölkələrin təcrübəsi də nəzərə alınmaqla təkmilləşdirilməlidir. Onu da qeyd etmək lazımdır ki, bu il Azərbaycan üzrə bütün seçicilərin siyahısı İnternetdə yerləşdirilmişdir.

Bununla yanaşı, bəzi problemlərin həll olunmaması, Seçki Məcəlləsinin bir sıra tələblərinin pozulması halları haqqında daxil olan məlumatlar narahatlıq doğurmaya bilməz. Vətəndaşların sərbəst toplaşmaq azadlığının təmin edilməsində, seçici vəsiqələrinin paylanmasında və seçici siyahılarının tərtib edilməsində yol verilən nöqsanlar haqqında, həmçinin bəzi icra hakimiyyəti orqanlarının seçki prosesinə qanunsuz müdaxiləsi, inzibati resurslardan istifadə olunması, ayrı-ayrı namizədlər tərəfindən seçkiqabağı təşviqat zamanı qanunla qadağan olunmuş üsullara əl atılması və sair faktlarına dair şikayətlər daxil olmaqdadır.

Seçki praktikasının təkmilləşdirilməsi sahəsində görülən tədbirlərin səmərəliliyini artırmaq, Seçki Məcəlləsinin müddəalarının seçkilərə hazırlıq dövründə və səsvermə günü tam və şərtsiz həyata keçirilməsi, vətəndaşların seçki hüquqlarının daha dolğun təmin edilməsi məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikasının Milli Məclisinə təklif edilsin ki, “Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında” Azərbaycan Respublikası Qanunundan nizamnamə kapitalında xarici fiziki və hüquqi şəxslərin payı 30 faizdən artıq olan və ya başqa cür maliyyələşdirilən qeyri-hökumət təşkilatlarının Azərbaycan Respublikasında keçirilən prezident, Milli Məclis və bələdiyyə seçkilərini müşahidə etməsinə qadağanın götürülməsi məsələsini müzakirə etsin.

2. Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına tövsiyə edilsin ki:

2.1. seçici vəsiqələrinin paylanması və seçici siyahılarının dəqiqləşdirilməsi ilə əlaqədar yaranmış problemləri nəzərə alaraq, seçicilərin səsvermə günü seçki bülletenlərini aldıqları zaman barmaqların gözə görünməyən mürəkkəblə işarələnməsi qaydalarına dair müvafiq təlimatı qısa müddətdə hazırlayıb Mərkəzi Seçki Komissiyasının müzakirəsinə çıxarsın;

2.2. seçki komissiyalarına daxil olan seçki hüquqlarının pozulması haqqında şikayətlərə baxılma qaydalarına dair təlimatı qısa müddətdə hazırlayıb təsdiq etsin;

2.3. deputatlığa namizədlərin seçkiqabağı təşviqat kampaniyası zamanı yol verdikləri qanun pozuntularına dair qətiyyətli mövqe bildirsin, Qanunla ona verilmiş inzibati tənbeh səlahiyyətindən tam və dönmədən istifadə etsin;

2.4. məntəqə seçki komissiyalarında seçicilərin ünvanlarının tam göstərildiyi seçici siyahıları ilə bütün maraqlı şəxslərin tanış olmaları üçün müvafiq şərait yaradılmasını təmin etsin.

3. Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinə tapşırılsın ki, şəxsiyyəti təsdiq edən heç bir sənədi olmayan vətəndaşlara seçki gününədək şəxsiyyət vəsiqələrinin verilməsini təmin etsin.

4. Azərbaycan Respublikası Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi, "Azərenerji" Səhmdar Cəmiyyəti və yerli icra hakimiyyəti orqanları dairə və məntəqə seçki komissiyalarının yerləşdiyi binaların rabitə və elektrik enerjisi ilə fasiləsiz təmin olunmaları üçün zəruri tədbirlər görsünlər.

5. Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinə və yerli icra hakimiyyəti orqanlarına tapşırılsın ki, "Sərbəst toplaşmaq azadlığı haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq siyasi partiyalara, siyasi partiyaların bloklarına və deputatlığa namizədlərə müəyyən olunmuş yerlərdə kütləvi tədbirlər və seçkiqabağı təşviqatın keçirilməsi üçün bütün zəruri şəraiti yaratsınlar.

6. Azərbaycan Respublikasının Baş Prokuroruna tövsiyə edilsin ki, seçki günü vətəndaşların seçki hüquqlarının pozulması ilə əlaqədar Mərkəzi Seçki Komissiyasından daxil olan cinayət tərkibli olması ehtimal edilən məlumatları təcili araşdırsın və cinayət əməlləri törətməkdə təqsirli bilinən şəxslərin məsuliyyətə cəlb edilməsini təmin etsin.

7. Aidiyyəti dövlət orqanları "Azərbaycan Respublikasında seçki praktikasının təkmilləşdirilməsinə dair" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 11 may tarixli Sərəncamında nəzərdə tutulan tapşırıqların yerinə yetirilməsi ilə əlaqədar müvafiq hesabatları beş gün müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsinlər.

8. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 25 oktyabr 2005-ci il.

## Yerli, xarici müşahidəçilər və tərcüməçilər üçün ərizə formaları

### TƏRCÜMƏÇİNİN ƏRİZƏ FORMASI

2008-ci ildə Azərbaycan Respublikasında keçiriləcək Prezident seçkilərini müşahidə edən beynəlxalq müşahidə missiyasına tərcüməçilik xidməti göstərmək üçün mənə müvafiq vəsiqə-lövhəcik verməniz xahiş edirəm.

Ərizəyə şəxsiyyət vəsiqəmin surətini və 3x4 sm ölçüdə 2 ədəd fotoşəkilmi əlavə edirəm.

***Soyadı, adı, atasının adı:*** ________________________________________

***Ünvan:*** ________________________________________________________________________

| ***Telefon*** | ***Faks*** | ***E-poçtu*** |
|---|---|---|
| ____________________ | ____________________ | _______________________ |

***Şəxsiyyət vəsiqəsinin seriya və nömrəsi:*** ______________________________________________

_______________ _______________________

***(imza)*** ***(ərizəçinin insialı və soyadı)***

"____" __________2008 - ci il

**Application Form for International Observer**

I apply for accreditation in order to observe Presidential Elections of the Republic of Azerbaijan on October 15, 2008. Copy of my passport and 2 photos (3x4) are attached to the application form.

*Name:* ______________________________

*Surname:* ______________________________

*Patronymic:* ______________________________

*Address:*

______________________________________________________

*Phone:* ______________ *Fax:* ______________ *E-mail:* ______________

*Citizenship:* ______________________________________________________

*Passport (ID card ):* ______________________________________________

*Country/organization I represent:* ____________________________________

______________________________________________________________

*Profession, field of activity:* __________________________________________

*Election observation experience (country, year):* ____________________________

______________________________________________________________

*I declare that being accredited as an international observer I will refer to facts, abide by the principles of legality, independence, impartiality, fairness and respect the provisions of the Election Code and other laws.*

*I assure you of my awareness of my rights and duties, as well as responsibilities of an international observer. I will not interfere in an activity of election officials, political parties and their candidates, as well as in the activity of citizens of Azerbaijan.*

*Date of arrival in the Republic of Azerbaijan:* __________________________

*Date of departure from the Republic of Azerbaijan:* ______________________

*Signature/Place and date of sign:*______________________________

**Анкета международного наблюдателя**

Прошу Вас зарегистрировать меня в качестве международного наблюдателя по выборам Президента Азербайджанской Республики 15 октября 2008-го года. Копия паспорта и 2 фотографии (3x4) прикрепляются к анкете.

*Фамилия:*______________________________

*Имя:* __________________________________

*Отчество:* ____________________________

*Контактный адрес:*

_________________________________________________________

*Телефон:* ____________________ *Факс:* __________________ *Е-почта:* ________________________

*Гражданство:* _______________________________________________________________

*Номер паспорта (удостоверение личности):*_____________________________________

*Страна/организация, которую Вы представляете:* _______________________________

_____________________________________________________________________________

*Профессия, вид деятельности:* ________________________________________________

*Опыт наблюдения за выборами (страна, год):* ___________________________________

_____________________________________________________________________________

*Заявляю, что, будучи зарегистрированным в качестве международного наблюдателя, буду опираться на факты, основываться принципами законности, независимости, беспристрастности, объективности, неукоснительно соблюдать закон о выборах и другие нормы права.*

*Заверяю о том, что знаком с правами и обязанностями, а также функциями международного наблюдателя. Я ни при каких обстоятельствах не буду вмешиваться в деятельность официальных лиц, действующих в избирательных органах, представителей политических партий и их кандидатов, а также в деятельность граждан Азербайджана.*

*Дата прибытия в Азербайджанскую Республику:* ________________________

*Дата отбытия из Азербайджанской Республики:* ________________________

*Подпись/Место и дата подписи:* ______________________________________

## Aktların yazılması üçün nümunələr

______________________________________________
(rayon, şəhər, kənd bələdiyyəsinin adı)
______saylı___________seçki ərazisinin ________saylı seçki məntəqəsi
__________2008-ci il

**AKT**

Biz, aşağıda imza edənlər ___________________________________________
(imza edənlərin soyadı, adı, atasının adı və vəzifəsi)
______________________________________________________________________________________
______________________________________________________________________________________
______________________________________________________________________________________
______________________________________________Bu aktı ondan ötrü tərtib etdik ki, _________saylı ____________________seçki ərazi __________saylı seçki məntəqəsində saat___________aşağıdakı qanun pozuntusu qeydə alınıb________________________________________________________________________
(qanunun pozuntusunun qısa və konkret məzmunu)
____________________________________________________________________________
(müşahidəçinin yaddaş kitabçasında göstərilən müvafiq maddəyə istinad edin)
______________________________________________________________________________________
______________________________________________________________________________________
______________________________________________________________________________________
______________________________________________

Yuxarıda göstərilənləri öz imzamızla təsdiq edirik.

1.
2.
3.
4.
5.

AZƏRBAYCAN RESPUBLİKASINDA PREZİDENT SEÇKİLƏRİ
SEÇKİ GÜNÜ MÜŞAHİDƏNİN NƏTİCƏLƏRİNƏ DAİR
YEKUN RƏY

________________________2008-ci il

Mən,________________________________________________________________________
(adı, soyadı, atasının adı)

saylı__________seçki dairəsinin________________ saylı seçki məntəqəsində səsvermə başlandığı andan (saat_______) səsvermənin nəticələrinin rəsmiləşdirilməsi başa çatanadək(saat__________) müşahidə aparmışam.

Müşahidə prosesində apardığım qeydlərin qiymətləndirilməsi əsasında həmin məntəqədə səsvermənin gedişi ilə bağlı aşağıdakı rəyə gəlmişəm:

____________________________________________________________________________(seçki məntəqəsindəki proseslərin mərhələ-mərhələ qısa və konkret qiymətləndirilməsi)

____________________________________________________________________________(qanun pozuntuları göstərildikdə müvafiq maddələrə istinad edilməlidir)

____________________________________________________________________________(verilən təkliflərə, iradlara məntəqə seçki komissiyasının münasibəti)

_____________________________________________________________________________________
_____________________________________________________________________________________
_____________________________________________________________________________________
_____________________________________________________________________________________
_____________________________________________________________________________________
_______________________

Qoşma

1. Səsvermə protokolunun surəti______________ vərəq
2. MnSK-nın aktlarının surəti _______________vərəq
3. MnSK-nın qərarlarının surəti_______________vərəq
4. 1 saylı cədvəlin surəti ______________ vərəq

Müşahidəçinin aktları _____________ vərəq

İmza_____________________